

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 85 (23.727)

*9 may 2021-ci il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda faşizm üzərində Qələbənin 76-cı ildönümü qeyd olunmuşdur

1941-1945-ci illər müharibəsində faşizm üzərində qazanılan tarixi Qələbənin 76-cı ildönümü Naxçıvan Muxtar Respublikasında qeyd olunmuşdur.

Mayın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Xatirə Kompleksinə gəlmiş, veteranlarla görüşmüş, onları qələbə münasibətilə təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri abidə önünə gül dəstəsi qoymuş, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsinə ehtiramını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, xidmət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin, hərbi hissələrin nümayəndələri də müharibədə həlak olanların əziz xatirəsini ehtiramla yad etmişlər.

Naxçıvan Hərbi Qarnizonunun nümunəvi Hərbi Orkestrinin ifasında marşlar səslənmişdir.

Faşizm üzərində qələbənin əldə olunmasında Azərbaycan xalqının böyük xidmətləri olmuşdur. 1941-1945-ci illər müharibəsində igid Azərbaycan oğulları xalqımıza xas qəhrəmanlıq və hərbi şücaət nümunəsi göstərmişlər. Xalqımızın sarsılmaz iradəsi və inamı ön və arxa cəbhəni birləşdirmiş, faşizm üzərində qələbəyə mühüm töhfə vermişdir. Müharibənin başlandığı ilk gündən səfərbərlik elan olunmuş, on minlərlə azərbaycanlı döyüş cəbhəsinə könüllü göndərilmək üçün ərizə vermişdir. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salmış, onların, təxminən, yarısı döyüş meydanlarından geri qayıtmamışdır. Müharibə illərində göstərdikləri igidliyə görə 123 Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilmişdir. Azərbaycanlı çağırışçılardan və könüllülərdən ibarət 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı atıcı diviziyalar böyük qəhrəmanlıq nümunəsi göstərmişdilər.

402-ci atıcı diviziya Naxçıvanda formalaşaraq buradan birbaşa döyüş meydanına yola salınmışdır. Həmyerlilərimiz Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçərək göstərdikləri qəhrəmanlıqlarla adlarını tarixə yazmışlar. Döyüşlərdə iştirak edən naxçıvanlılardan 3-ü Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüş, bir nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi, müharibə iştirakçılarından 102-si "Şöhrət" ordeninin ayrı-ayrı dərəcələri ilə, 105-i birinci və ikinci dərəcəli "Vətən Müharibəsi", 315-i "Qırmızı Ulduz", 29-u "Qırmızı Bayraq" ordenləri ilə təltif olunmuşlar.

Ölkəmizdə 1941-1945-ci illər veteranlarına daim qayğı göstərilmişdir. ***"Azərbaycanın qəhrəman oğulları Böyük Vətən müharibəsində şücaət göstərmiş, xalqımızın qəhrəmanlıq nümunələrini dünyaya nümayiş etdirmişlər və alman faşizmi üzərində çalınan qələbədə Azərbaycan xalqının da böyük payı vardır"***, – deyən ulu öndər Heydər Əliyev Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra 9 May Qələbə Günü kimi rəsmiləşdirilərək dövlət bayramları sırasına daxil edilmiş, müharibə veteranlarının imtiyazları və statusları bərpa olunmuşdur.



Bu gün ölkəmizdə müharibə veteranlarına dövlət qayğısı sosial siyasətin əsas istiqamətlərindəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müharibə iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərilir.

Qələbə bayramı ərəfəsində ölkə Prezidenti cənab İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması ənənə halını almışdır. Ölkə Prezidentinin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2021-ci il 29 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan vətəndaşların xüsusi diqqət və qayğı ilə əhatə olunduqlarının daha bir ifadəsidir. Sərəncamdan irəli gələn vəzifələrin icrası muxtar respublikada həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasında da müharibə iştirakçılarına xüsusi qayğı ilə yanaşılır. Hər il muxtar respublikada faşizm üzərində qələbə günü qeyd olunur. Müharibə veteranlarının sosial müdafiəsi gücləndirilir, onlar sanatoriya və kurortlara göndərilir, minik avtomobilləri və mənzillərlə təmin olunurlar.

Naxçıvan Muxtar Respublikasının rayon mərkəzlərində də 1941-1945-ci illər müharibəsində faşizm üzərində qazanılan tarixi Qələbənin 76-cı ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.






**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü qeyd edilib



*Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilmiş tədbir keçirilib.*

Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin, görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın məzarları ziyarət edildikdən sonra başlayan tədbirdə, ilk növbədə, ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, işğal altında olan torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov çıxış edərək ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, onun Azərbaycan tarixindəki rolu barədə ətraflı danışıb. Müstəqil dövlətimizin və dövlətçiliyimizin banisi, Azərbaycan xalqının xilaskarı olan ulu öndər Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən bəhs edib, onun zəngin irsinin bütün nəsillər üçün örnək olduğunu diqqətə çatdırıb. Dünya səviyyəli siyasət və dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının tarixində nadir şəxsiyyətlərdəndir ki, O, zəhmətlə dolu həyatı, zəngin irsi, quruculuq, uğurlu dövlət rəhbəri kimi yaradıcılıq amalı ilə çoxillik siyasi fəaliyyətə malikdir. Müasir Azərbaycan dövlətinin banisi, zəmanəmizin böyük siyasi xadimi, dövrünün nüfuzlu söz sahibi, ulu öndər Heydər Əliyevin Azərbaycanın tarixində və taleyində ölçüyəgəlməz xidmətləri olmuşdur. Onun ən böyük xidmətlərindən biri də özündən sonra Azərbaycanı etibar edə biləcək layiqli, ləyaqətli davamçı, dünyaca tanınmış şəxsiyyət, Prezident cənab İlham Əliyev kimi müdrik və vətənpərvər bir siyasi lider, müzəffər sərkərdə yetişdirməsi olmuşdur.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası da bugünkü həyatını və inkişafını məhz ulu öndər Heydər Əliyevə borcludur. Ulu öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi müasir müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən mühüm səhifələrindən birini təşkil edir. Siyasi fəaliyyətinin Naxçıvan dövründə dahi rəhbər Heydər Əliyev gördüyü işlər, atdığı tarixi əhəmiyyətli addımlarla muxtar respublikanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etmiş oldu. Naxçıvan Muxtar Respublikasında hələ o zaman sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və tərəqqinin əldə olunması üçün mühüm tədbirlər görüldü, eyni zamanda aqrar islahatlar reallaşdırıldı, infrastrukturun inkişafı yönündə xüsusi işlər həyata keçirildi.

Bu gün ölkəmizin və onun Naxçıvan Muxtar Respublikasının inkişafı, tərəqqisi, əldə olunan nailiyyətlər, mövcud sabitlik və insanların yüksək rifahı məhz ulu öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsidir. Bu yol xalqımızı dünən və bu gün olduğu kimi, gələcəkdə də daha xoşbəxt günlərə, qələbələrə qovuşduracaqdır. Nə qədər ki müstəqil Azərbaycan dövləti və xalqı var, ulu öndər Heydər Əliyev də var olacaq və yaşayacaqdır.

Tədbir digər çıxışlar və ulu öndərə həsr edilmiş "Müstəqil Vətənin memarı" filminin nümayişi ilə davam etdirilib.

**AZƏRTAC**

## Muxtar respublikada ulu öndərin anadan olmasının 98-ci ildönümünə həsr edilmiş tədbirlər keçirilib



“Naxçıvan” Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunan tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra universitetin rektoru, dosent Nurlana Əliyeva çıxış edərək ulu öndərin əsasını qoyduğu dövlət gənclər siyasəti haqqında danışıb. Bildirib ki, zəngin dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutub. Gənclərimizin bir fərd, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında onun böyük əməyi, misilsiz xidmətləri var.

Rektor qeyd edib ki, ulu öndər Azərbaycana rəhbərlik etdiyi hər iki dönəmdə təhsilin cəmiyyətin inkişafında rolunu yüksək qiymətləndirmiş və bu sahənin inkişafını daim diqqətdə saxlamışdır. Onun təhsilin təşkili və inkişafı istiqamətində gördüyü işlər bu gün də ölkəmizdə təhsil siyasətinin uğurla davam etdirilməsinə öz töhfəsini verməkdədir. Vurğulanıb ki, əsası ulu öndər tərəfindən qoyulan dövlət gənclər siyasəti bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli bildirib ki, ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində ulu öndərin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır.

Milli Məclisin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev vurğulayıb ki, ölkəmizdə gənclərlə iş sahəsində mühüm tədbirlərin gerçəkləşdirilməsi ulu öndərin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin diqqət yetirdiyi mühüm istiqamətlərdən biri də gənclərlə iş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, “Naxçıvan” Universitetinin prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu diqqətə çatdırıb ki, ümummilli lider, nəinki ictimai-siyasi, həm də iqtisadi sahədə çox mühüm və həlledici addımlar atıb.

*Naxçıvan Müəllimlər İnstitutunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə “Ümummilli liderimizin uzaqgörən siyasəti və Vətən müharibəsindəki Zəfərimiz: möhtəşəm irs və zaman” mövzusunda elmi konfrans keçirilib.*



Konfransı giriş sözü ilə açan institutun rektoru Azad Novruzov qeyd edib ki, XX əsrin 70-ci illərindən başlayaraq ölkəmizin bütün sahələrdəki inkişafı bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin uzaqgörən siyasətinin şah əsəri milli, ümumbəşəri dəyərlərə əsaslanan, qüdrətli orduya sahib, inkişaf etmiş təhsil sisteminə malik, güclü iqtisadi inkişafı şərtləndirən, dünyanın inkişaf etmiş dövlətləri sırasında öz yerini tutan müstəqil Azərbaycandır. Ümummilli liderin siyasətinin uğurla davam etdirilməsi xalqımızı Ali Baş Komandan, güclü Azərbaycan Ordusu və dövlət-xalq birliyinin əsasında şanlı qələbəyə apardı.

Sonra institutun İxtisasartırma və yenidənhazırlanma üzrə prorektoru Çapay Quliyev “Qarabağ Azərbaycandır!” çağırışından Böyük Qayıdışa doğru: dövlət və xalqın vəhdəti dünən və bu gün”, institutun Humanitar və ictimai fənlər kafedrasının müəllimi Qorxmaz Hacızadə “Heydər Əliyevin gənclər siyasəti və müharibədə zəfər çalan gəncliyimiz” mövzularında çıxış ediblər.

* * *



*Mayın 8-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü ilə əlaqədar olaraq ümumtəhsil məktəbləri ilə Heydər Əliyev Muzeyi arasında interaktiv dərs keçilib.*

İnteraktiv dərsdə muzeyin bələdçisi Hicran Bədəlova əvvəlcə mədəniyyət müəssisəsi barədə şagirdlərə ətraflı məlumat verərək bildirib ki, hələ ümummilli liderin sağlığında yaradılan muzeydə ulu öndərin həyatının müxtəlif dövrlərinə həsr olunmuş eksponatlar, eləcə də dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrdə qəbul etdiyi müxtəlif tarixi sənədlər toplanıb.

İnteraktiv dərsdə vurğulanıb ki, dahi rəhbərin Vətənimizin suverenliyi, ölkəmizin düşdüyü bəlalardan xilası, Azərbaycanın inkişafı naminə mübarizədə əvəzolunmaz xidmətləri Onu hələ sağlığında xalqımızın ümummilli liderinə çevirib. Heyrətamiz idarəçilik istedadına, mətin iradəyə və böyük əzmkarlığa malik ulu öndərimiz Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizi tənəzzüldən çıxararaq qabaqcıl və nüfuzlu ölkə səviyyəsinə yüksəldə bilib. Qeyd olunub ki, ulu öndər Heydər Əliyev xalqımız qarşısında misilsiz xidmətləri ilə bu gün hər birimizin qəlbində yaşayır. Bu böyük insanın həyat yolu hər bir məktəbliyə, hər bir gəncə nümunədir.

İnteraktiv dərs muxtar respublikanın 200-dən çox ümumtəhsil məktəbinin şagirdləri tərəfindən izlənilib.

**Xəbərlər şöbəsi**

## Azərbaycanlılar 1941-1945-ci illər müharibəsində göstərdikləri qəhrəmanlığı ötən il 44 günlük müharibədə bir daha nümayiş etdirdilər

***Başa çatmasından 76 il ötən 1941-1945-ci illər müharibəsinə cəlb olunmuş keçmiş müttəfiq respublikalar içərisində Azərbaycan da var idi və o zaman istər ümumi əhaliyə nisbətən əsgər sayına, istərsə də döyüşən əsgərlərin təltif olunması faizinə görə ölkəmiz ən öncül sıralarda dayanırdı. Belə ki, müharibədə 700 minə yaxın azərbaycanlı, başqa sözlə, respublika əhalisinin hər 5 nəfərindən biri cəbhədə vuruşmuş, onların 450 mini və ya 65 faizi orden və medallarla təltif edilmişdir. Azərbaycandan 130 nəfər “Sovet İttifaqı Qəhrəmanı” kimi yüksək ada layiq görülmüşdür.***

Azərbaycanlılardan ibarət təşkil edilmiş və müharibədə fədakarlıq göstərmiş 416-cı “Taqanroq”, 402-ci “Azərbaycan”, 223-cü “Belqrad” və 77-ci “Simferopol” diviziyaları şərəfli döyüş yolu keçmiş, soydaşlarımızın, təxminən, yarısı ağır döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınmışdır. Həmyerlilərimiz 223-cü diviziyanın tərkibində Macarıstan və keçmiş Yuqoslaviyanın faşistlərdən təmizlənməsində igidlik göstərmişlər. Bu da qürurvericidir ki, 416-cı diviziya Şimali Qafqazdan Berlinədək ağır döyüş yolu keçmiş, diviziyanın əsgərləri Berlində qələbə bayrağını ilk qaldıranların sırasında olmuşlar.

Qeyd edək ki, müharibənin başlandığı gün – 1941-ci il iyunun 22-də Naxçıvan Muxtar Respublikasından 6492 nəfər orduya yollanmışdı. Bütövlükdə, 29 min 500 muxtar respublika sakini 1941-1945-ci illər müharibəsində iştirak etmişdir. Müharibəyə könüllü gedənlərdən yüzə yaxını qadınlar idi. Cəbhəyə yollanan naxçıvanlıların hər iki nəfərindən biri – 16 minə yaxın insan həlak olmuşdur. Üç həmyerlimiz – Abbas Quliyev, Nəcəfqulu Rəfiyev və Qəzənfər Əkbərov SSRİ-nin ən yüksək mükafatına – “Sovet İttifaqı Qəhrəmanı” adına, Rəhim Rəhimov “Şöhrət” ordeninin hər üç dərəcəsinə layiq görülmüşdür. 600 nəfər isə müxtəlif orden və medallarla təltif edilmişdir. 102 nəfər “Şöhrət” ordeninin ayrı-ayrı dərəcələri, 105 nəfər birinci və ikinci dərəcəli “Böyük Vətən Müharibəsi”, 315 nəfər “Qırmızı Ulduz”, 29 nəfər “Qırmızı Bayraq” ordenləri ilə təltif edilmişdir. Həmin illərdə azərbaycanlılar arxa cəbhədə də fəallıqları ilə seçilmişlər. Onlar ordunun ehtiyacını ödəmək üçün qüvvələri səfərbərliyə almış, gecəni gündüzə qataraq çalışmış, qələbənin qazanılmasına öz töhfələrini verməyə səy göstərmişlər.

O da xüsusi vurğulanmalıdır ki, faşizm üzərində tarixi qələbənin əldə edilməsində Azərbaycan nefti xüsusi rol oynamışdır. Belə ki, həmin illərdə Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzininin və yüksəkkeyfiyyətli sürtkü yağlarının 85-90 faizi Azərbaycanın payına düşürdü. Qələbənin təmin edilməsində həlledici rol oynamış sovet ordusunun tank və təyyarələrinin böyük əksəriyyəti Azərbaycan neftinin hesabına hərəkətə gətirilirdi. Bakı nefti olmasaydı, bu müharibədə hərbi əməliyyatları uğurla başa çatdırmaq mümkün olmazdı. Görkəmli akademik Yusif Məmmədəliyevin 1941-1945-ci illərdə neft kimyası sahəsində etdiyi ixtiralar isə, ümumilikdə, sovet Azərbaycanının o dövrdə qələbəsi idi.

Ölkəmizin bütün sənaye müəssisələri, xüsusən maşınqayırma zavodları silah və sursat istehsalı ilə məşğul idi. Müharibə dövründə Azərbaycanda 130 növ silah və sursat istehsal olunaraq cəbhəyə göndərilirdi. Bununla yanaşı, cəbhəyə kömək məqsədilə digər imkanlardan da istifadə olunurdu. Həmin dövrdə təkcə Naxçıvan Muxtar Respublikasından müdafiə fonduna 12 kiloqram qızıl və gümüş, 180 milyon 89 min manat nağd pul, 70 min ton ət və digər ərzaq məhsulları, 160 min dəstdən çox isti paltar, 10 mindən artıq bağlama göndərilmişdir.

Vətən yolunda xidməti olan insanlardan heç vaxt qayğısını əsirgəməyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: ***“Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur”.***

Görkəmli dövlət xadiminin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 May respublikamızda “Qələbə Günü” kimi rəsmiləşdirilmiş, dövlət bayramları sırasına daxil edilmiş, müharibə veteranlarının sosial müdafiəsi ildən-ilə gücləndirilmişdir. Onların xatirəsinin əbədiləşdirilməsi istiqamətində sistemli və ardıcıl tədbirlər görülmüş, imtiyazları və statusları bərpa olunmuşdur.

Adıçəkilən savaşda igidlik göstərən müharibə veteranları bu gün də hərtərəfli dövlət qayğısı ilə əhatə edilmişdir. ***“Biz veteranlarımıza çox mehriban münasibət bəsləyirik. Onlara vaxtaşırı mənzillər, istirahət üçün sahələr, pul mükafatları ayrılır. Onlar xalqımızın fəxridir. Biz həlak olanların xatirəsinə də ehtiramla yanaşırıq və əminik ki, gənc nəslin qəhrəmanlıq və Vətənə məhəbbət ənənələrini davam etdirməsi üçün onlar məhz bu cür fədakar qəhrəmanlıq və Vətənə məhəbbət ruhunda tərbiyə olunmalıdırlar”***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir. Ölkə Prezidentinin İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakarlıq göstərmiş insanlara davamlı xarakter alan qayğısı hamı tərəfindən rəğbətlə qarşılanır.

“Böyük Vətən müharibəsi iştirakçılarının “Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilməsi haqqında” 2020-ci il 1 may tarixli Sərəncam bu təbəqədən olan vətəndaşlara dövlət başçısının xüsusi diqqət və qayğısının növbəti göstəricisidir.

Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da müharibə veteranlarına xüsusi qayğı ilə yanaşılır, onların sosial müdafiəsi gücləndirilir, veteranlar sanatoriya və kurortlara göndərilir, minik avtomobilləri ilə təmin olunurlar. Muxtar respublikada 1941-1945-ci illərdə böyük şücaət və qəhrəmanlıq göstərmiş insanların keçdiyi şərəfli döyüş yolu gənc nəslin mənəvi, hərbi-vətənpərvərlik tərbiyəsində mühüm amilə çevrilmişdir. Hər il 9 May – Qələbə Günü muxtar respublikada geniş şəkildə qeyd olunur. 1941-1945-ci illər müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış abidələr önündə tədbirlərin keçirilməsi, müharibə veteranlarına hədiyyələrin verilməsi və digər tədbirlər bu kateqoriyadan olan insanlara göstərilən diqqətin əyani ifadəsidir.

1941-1945-ci illər müharibəsi iştirakçılarının şərəfli ömür yolu sonrakı nəsillər üçün də bir məktəbdir və bugünkü gəncliyin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır. Gənclərimizdə yüksək vətənpərvərlik ruhunu bütün dünya ötən ilin sentyabr ayının 27-də başlanan İkinci Qarabağ müharibəsində gördü. Həmin gün Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi atəşə tutmağa başladı. Ordumuzun əks-hücumu ilə 44 gün davam edən müharibədə xalqımız dəmir yumruq kimi birləşdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin “Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında” 2020-ci il 3 dekabr tarixli Sərəncamında deyildiyi kimi: ***“Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu”.***

Bunun ifadəsidir ki, müharibədə iştirak edən hər bir azərbaycanlı gənc ata-baba əmanəti sayılan torpaqlarımızı erməni faşistlərinin əsarətindən azad olunmasında qəhrəmanlıq göstərdi, şəhadətə yüksəldi, qazi kimi evinə qayıtdı, böyük Qələbə qazandı. Bu gün qürur duyuruq ki, həmin müharibədə naxçıvanlı gənclər də böyük şücaət göstərdilər, torpaqlarımız uğrunda canlarından keçdilər. Onların qəhrəmanlığını ölkə Prezidenti də bir neçə dəfə vurğulayıb: ***“Naxçıvanlılar da İkinci Qarabağ müharibəsində bütün digər bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər. Şəhidlər veriblər”.***

*Bəli, 1941-1945-ci illər müharibəsində xalqımızın nümayəndələrinin göstərdiyi qəhrəmanlığı müzəffər Azərbaycan Ordusu 75 il sonra bir daha təkrar etdi. Bu, həm də nəsillər arasında varislik ənənələrinin davamı idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Vətəni sevmək Vətən torpağını qorumaq və mənsub olduğu ölkəni inkişafa qovuşdurmaq dərsidir. Gənc nəsil bu dərsi mənimsəyərək özündən sonrakı nəsillərə ötürməli, nəsillər arasındakı varislik ənənələri davam etməlidir”.***

**“Şərq qapısı”**

# Muxtar respublikanın rayonlarında alman faşizmi üzərində Qələbənin 76-cı ildönümü münasibətilə tədbirlər keçirilib



*1941-1945-ci illər İkinci Dünya müharibəsində qazanılan tarixi qələbənin 76-cı ildönümü muxtar respublikamızın rayonlarında da qeyd olunub.*

Alman faşizminə qarşı müharibədə Şərur rayonundan ordu sıralarına 4 min 7 nəfər səfərbər edilmiş, onlardan 1789 nəfəri həlak olmuş, yaxud itkin düşmüşdür. Hazırda rayonda İkinci Dünya müharibəsi veteranlarının 3-ü, həlak olmuş müharibə veteranlarının 44 nəfər dul arvadı, 48 nəfər arxa cəbhə veteranı yaşayır. Onlar bu gün hərtərəfli dövlət qayğısı əhatəsindədirlər. Ümummilli liderimiz tərəfindən əsası qoyulmuş bu siyasət bu gün də davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə İkinci Dünya müharibəsi veteranlarına yüksək təqaüdlər verilir, onlar pulsuz minik maşınları ilə təmin olunurlar. Veteranların sağlamlıqları, reabilitasiyaları diqqət mərkəzində saxlanılır. Qeyd edək ki, şərurlular Azərbaycan Vətən müharibəsində də qəhrəmanlıqlar göstərmiş, onlardan 88 nəfəri şəhidlik zirvəsinə yüksəlmişdir. Rayon ictimaiyyətinin nümayəndələri rayon mərkəzində İkinci Dünya müharibəsi veteranlarına ucaldılmış abidəni ziyarət etmiş, önünə tər çiçəklər düzmüşlər.

Babək rayonunda İkinci Dünya müharibəsində alman faşizmi üzərində qazanılan qələbənin 76-cı ildönümü münasibətilə keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların kollektivləri, eləcə də müharibə veteranları iştirak ediblər. Müharibədə həlak olmuş babəklilərin xatirəsinə rayon mərkəzində ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, qəhrəman övladlarımızın, şəhidlərimizin xatirəsi ehtiramla yad edilib. Bu müharibədə Babək rayonundan 1275 nəfər müharibəyə yollanıb, onlardan 1058-i qəhrəmancasına həlak olub, bir çoxu müxtəlif orden və medallarla təltif edilib. Xalqımız ata-babalarımızın yenilməz, mübariz ruhunu bu gün də yaşadır. Erməni faşizmi üzərində qazandığımız tarixi Qələbə bunu bir daha sübut edir. Vətən müharibəsində Babək rayonundan olan 16 igid şəhidlik zirvəsinə ucalıb.

Qələbənin 76-cı ildönümünə həsr olunmuş tədbirdə ordubadlılar 1941-1945-ci illər müharibəsi iştirakçılarının şərəfinə ucaldılmış Xatirə kompleksini ziyarət edərək abidə önünə gül dəstələri qoyublar. Builki Qələbə bayramı çox əlamətdar bir dövrə təsadüf edir. Belə ki, ötən il sentyabrın 27-dən başlayan 44 günlük Vətən müharibəsi tariximizə qızıl hərflərlə yazılıb. İgid Vətən oğulları öz şücaətləri ilə İkinci Dünya müharibəsində qalib olmuş ata-babalarının layiqli davamçıları olduqlarını sübut etdilər.

İkinci Dünya Müharibəsi zamanı Ordubad rayonundan cəbhəyə 3387 nəfər yollanıb, əksəriyyəti qanlı döyüşlərdə qəhrəmancasına həlak olub. Bu Vətən övladlarının xidmətləri dövlətimiz tərəfindən hər zaman layiqincə qiymətləndirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 29 aprel tarixli Sərəncamına əsasən bu il də muxtar respublikada 1941-1945-ci illər müharibə iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə birdəfəlik maddi yardım verilməsi təmin olunmuşdur.

İkinci Dünya müharibəsində alman faşizmi üzərində qazanılan qələbənin 76-cı ildönümü münasibətilə Culfa rayonunda keçirilən tədbirdə həlak olmuş culfalıların xatirəsinə rayon mərkəzində ucaldılmış abidə ziyarət olunub. Bu müharibədə Culfa rayonundan 1181 nəfər şücaət göstərib, onlardan bir çoxu müxtəlif orden və medallarla təltif edilib. Muxtar respublikada müharibə veteranları yaşayış mənzilləri, fərdi nəqliyyat vasitələri ilə təmin edilir, sanatoriya-kurort müalicəsinə göndərilir. İkinci Dünya müharibəsi iştirakçılarının müharibədə göstərdikləri misilsiz şücaət bugünkü gənclərimiz üçün bir qəhrəmanlıq nümunəsinə çevrilib. Məhz ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm qələbə, gənclərimizdə olan vətənpərvərlik ruhunun bariz nümunəsidir.

Mayın 8-də alman faşizmi üzərində tarixi Qələbənin 76-cı ildönümü ilə əlaqədar Kəngərli rayonunun idarə, müəssisə və təşkilatlarının rəhbərləri Qıvraq qəsəbəsində 1941-1945-ci illər müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət etmiş, abidə önünə gül dəstələri düzmüşlər. Bu müharibədə muxtar respublikamızın hər yerindən olduğu kimi, Kəngərli rayonundan olanlar da mərdliklə vuruşmuşlar. Hazırda Kəngərli rayonunda 1 İkinci Dünya müharibəsi veteranı, bu müharibədə həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin 17 dul arvadı, 10 arxa cəbhə veteranı yaşayır. Bu da xüsusilə vurğulanmalıdır ki, 6 ay bundan əvvəl xalqımızın zəfər qazandığı 44 günlük Vətən müharibəsində Kəngərli rayonundan olanlar da əsl qəhrəmanlıq göstərərək adlarını tariximizin yaddaşına əbədilik yazmışlar. Azadlıq mücadiləsində Kəngərli rayonundan 24 nəfər şəhid olmuşdur. Bu gün rayonda həm II Dünya müharibəsi, həm də Vətən müharibəsi qəhrəmanlarının adı uca tutulur, onların ailələrinə hərtərəfli dövlət qayğısı göstərilir.

Alman faşizmi üzərində qazanılan tarixi Qələbənin 76-cı ildönümü münasibətilə keçirilən tədbirdə Şahbuz rayonunun idarə, müəssisə və təşkilat nümayəndələri 1941-1945-ci illər müharibəsində iştirak edən qəhrəman oğulların xatirəsinə yaradılmış "Ana" Abidə Kompleksinin önünə tər qərənfillər düzüblər. Şahbuzlular da bu tarixi müharibədə qəhrəmancasına döyüşüb, Qələbənin qazanılmasına öz töhfələrini veriblər. Ölkəmizdə müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərilir. Bu diqqət və qayğının əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. 1941-1945-ci illər müharibəsində şərəfli döyüş yolu keçən oğul və qızlarımızın tarixi şücaətlərini, habelə arxa cəbhədə fədakarlıqla çalışanların xidmətlərini Azərbaycan xalqı heç vaxt unutmayacaqdır.

Çoxlu tarixi hadisələrin şahidi olan, düşmənlə bir addımlıqda ayıq-sayıq dayanan sərhəd bölgəmiz Sədərəyin sakinləri də 1941-1945-ci illər müharibəsində alman faşizminə qarşı mübarizədə böyük qəhrəmanlıq göstəriblər. 1941-1945-ci illər müharibəsində Sədərək kəndindən 462 nəfər iştirak edib. Onların 263 nəfəri qəhrəmancasına həlak olub. Qələbənin 76-cı ildönümü münasibətilə keçirilən tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, müharibə veteranları, rayonun müxtəlif idarə, müəssisə və təşkilatlarının əməkdaşları Sədərək kəndindəki Şəhidlər xiyabanına gedərək burada İkinci Dünya müharibəsi iştirakçılarının əziz xatirəsinə ucaldılan abidənin önünə və burada uyuyan türk əsgərinin qəbri üstünə gül dəstələri qoyublar. İkinci Dünya müharibəsində sədərəklilərin göstərdikləri igidlikləri onların övladları ötən ilin Azərbaycan Vətən müharibəsində göstərdilər. 44 gün davam edən Vətən müharibəsində dastan yazan 8 sədərəkli gənc həmin döyüşlərdə atalardan oğullara qalan qəhrəmanlığı, mübarizliyi Vətən təəssübkeşliyini bir daha nümayiş etdirdi. Həmin gün onlar da böyük sevgi və ehtiramla anıldılar.

**Xəbərlər şöbəsi**

***Bir danılmaz həqiqət var: müharibə ölüm, aclıq, fəlakət və ayrılıqdır. Müharibə iqtisadiyyatı geri salır, təsərrüfata güclü ziyan vurur, insanlar bir-birindən ayrı, didərgin düşürlər. Tarixboyu qanlı müharibələrin izlərini on illərlə aradan qaldırmaq olmur. Doğmalar illərlə bir-birinin üzünə həsrət qalır.***

# Xalqımızın nəsillərdən-nəsillərə yaşadılan qələbə əzmi

Bütün bunlara baxmayaraq, acgöz, qəddar, başqasının malına, torpağına göz dikənlər öz çirkin əməllərindən əl çəkmirlər. İyirminci əsrin, eləcə də dünya tarixinin ən dəhşətli müharibələrindən biri 1939-cu ildə başlamış İkinci Dünya müharibəsi idi. Bu, əvvəlki müharibələrdən qat-qat dəhşətli idi. Çünki müharibə 65 ölkəni cənginə almış və 50 milyon insanın ölümünə səbəb olmuşdur.

Doğma Vətənimiz bu müharibəyə SSRİ-nin tərkibində qatılmışdı. Başqa xalqlar kimi, Azərbaycan xalqı da insanlığa qarşı böyük təhlükə olan faşizm əleyhinə mübarizə aparırdı. İkinci Dünya müharibəsi təkcə özünü dünyaya ali irq kimi tanıtmağa çalışan Hitler Almaniyasına yox, ümumiyyətlə, faşizm taununa qarşı ədalətli müharibə idi. Azərbaycanımızın paytaxtı Bakı ölkənin cəbbəxanasına çevrilmişdi. 1941-ci ilin sonuna qədər Azərbaycanda 130 növ silah və hərbi sursat istehsal olunurdu. Qələbənin taleyi Azərbaycandan – Bakıdan asılı idi. Qəhrəman neftçilərimiz təkcə 1941-ci ildə cəbhəyə 23 milyon ton neft vermişdi. Bu ən yüksək göstərici idi!

Alman faşizminə qarşı mübarizəyə doğma Azərbaycanımız 600 min qəhrəman oğul və qız yola saldı. Bu gün onlardan biri – tam 4 il ön cəbhədə qanlı döyüşlərdə iştirak etmiş Hüseyn Kazım oğlu Tağıyev haqqında danışacağam.

Hüseyn Tağıyev 1923-cü ildə Babək rayon Şıxmahmud kəndində anadan olmuşdur. Sadə bir kəndli ailəsində doğulan Hüseyn orta məktəbi əla qiymətlərlə bitirir. Qeyri-adi riyazi qabiliyyəti olan bu gənc 30-cu illərin sonunda, müəllim kadrlarının çatışmadığı bir dövrdə təhsil şöbəsi işçilərinin diqqətini cəlb edir.

On səkkiz yaşlı Hüseyn məktəbdə riyaziyyat müəllimi işləməyə başlayır. Arzusu işləyə-işləyə ali təhsil almaq idi. Lakin...

Yüzlərlə, minlərlə gənc kimi, Hüseynin də arzusu ürəyində qalır. Müharibə qorxulu kabus kimi ölkənin başı üstünü alır. 1941-ci ilin ortalarında Hüseyn müəllimə Hərbi Komissarlıqdan çağırış vərəqəsi gəlir. Onda onun 18 yaşı təzəcə tamam olmuşdu.

O, Tbilisi şəhərində açılan hərbi kursda təlim keçdikdən sonra leytenant kimi birbaş ön cəbhəyə yollanır. Hüseyn Tağıyev əvvəlcə 77-ci, sonra isə 416-cı diviziyada döyüşür. Bu diviziyalar ancaq azərbaycanlılardan təşkil olunmuşdu. 416-cı diviziya 1943-cü ildə Rostov vilayətinin Taqanroq şəhərini azad etdikdən sonra "Taqanroq diviziyası" adlanır və şanlı bir döyüş yolu keçərək Berlinə qədər gedib çıxır.

Müharibə insanları hər cür çətinliyə tez alışdırır. Hüseyn müəllim qısa müddətdə hərbi istehkam mühəndisliyinin sirlərini öyrənir, ekipaj komandiri kimi düşmənə qarşı mübarizə aparır. Onun döyüş yolu Krımdan, Mozdokdan, Odessadan, Ukraynadan keçərək Berlinə doğru yol alır.

1944-cü il Hüseyn müəllimin son döyüşü olur. Onun komandiri olduğu dəstəyə belə bir tapşırıq verilmişdi. Paraşütlə cəbhənin təyin olunmuş yerinə tullanmaq və düşmənə ağır zərbə vurmaq. Onun paraşütünün yerə çatması ilə yanında bombanın partlaması bir olur. Mərmi torpağın altını üstünə çevirir və o, torpağın altında qalır. Bir də hərbi hospitalda gözünü açır. Özünün təxmini hesablamalarına görə, o, üç gün torpağın altında qalır. Taleyin qisməti yenə köməyinə gəlir. Sağ qalır, ancaq bir il həm nitq, həm də eşitmə qabiliyyətini itirir. O, ömrünün sonuna qədər həm sinəsində, həm də diz qapağında mərmi qəlpəsi daşıyır.

Hüseyn müəllim sağalana qədər müharibə qələbə ilə bitir. Bu cəsur naxçıvanlı "Lenin" , "Qırmızı Ulduz", "Döyüş xidmətlərinə görə", "Qafqazın müdafiəsinə görə" və digər orden, medal və döş nişanlarına





layiq görülür.

Dinc quruculuq illərində Hüseyn müəllim ali təhsil alaraq sevdiyi sənətinə – riyaziyyat müəllimliyinə qayıdır.

Hüseyn müəllimin 9 övladı və çoxlu nəvə-nəticələri var. Nəvə-nəticələr babanın keçdiyi ağır və şərəfli döyüş yolu haqqında xatirələrinə dönə-dönə qulaq asır və bununla qürur duyurlar. Onlar ayrı-ayrı peşə və ixtisasa yiyələnirlər. Ancaq biri – balaca Mənsur bu söhbətlərdən təsirlənir və "mən də böyüyəndə əsgər olacağam", – deyirdi.

Qarabağ münaqişəsi başlananda Hüseyn müəllimin oğul nəvəsi Mənsur Tağızadə hələ doğulmamışdı. O, 1995-ci ildə Babək rayon Şıxmahmud kəndində anadan olmuşdur. Gördüyü filmlərdən, oxuduğu kitablardan, tarixini bildiyi Xocalı soyqırımından ermənilərin vəhşiliyini anlamış və düşmənə qarşı nifrət qəlbində əbədi kök salmışdı.

Babasının tez-tez işlətdiyi "erməni quldurluğu da elə faşizm taunu qədər dəhşətlidir" kəlməsini indi bütün dərinliyi ilə anlayırdı. Qarabağ sevgisi, torpaq həsrəti, düşmənə qarşı nifrət onun hərbçi olmaq arzusunu gerçəkləşdirdi.

Əvvəlcə Heydər Əliyev adına Hərbi Liseyə daxil oldu. 2013-2017-ci illərdə Dövlət Sərhəd Xidməti Akademiyasında ali hərbi təhsil aldı. Raket artilleriya silahlarının istehsalı və təmiri mütəxəssisi ixtisasına yiyələndi.

Vətən müharibəsi başlananda o, üç il idi ki, zabit kimi Vətənə xidmət edirdi. 2020-ci il iyulun 12-də Tovuz istiqamətində düşmənin hərbi təxribatı zamanı Mənsur baş leytenant rütbəsini təzə almışdı. General Polad Həşimovun ölüm xəbərini eşidəndə yüzlərlə Azərbaycan vətəndaşı kimi o da daxilən sarsılır. Qəzəblə pıçıldayır: "Qisasın alınacaq, generalım!"

Sentyabrın 27-də Vətən müharibəsi başlayanda Mənsur ailəsini Naxçıvana göndərir və öz yerini hərbi sirr kimi gizli saxlayır.

30 il ərzində goreşən kimi özlərinə yuva və istehkamlar qurmuş azğın düşmən qəlbində Vətən sevgisi, yurd həsrəti gəzdirən Azərbaycan əsgərinin qarşısında dura bilmir. Kütləvi şəkildə silah-sursatlarını, şəxsi əşyalarını qoyub qaçırlar. Ana torpaqdan güc alan igid əsgərlərimiz 44 gün ərzində bütün qəlbləri ilə sevdikləri Qarabağ torpağını azad edirlər.

44 gün ərzində gecə-gündüz pilotsuz uçuş aparatları ilə düşmənə qan udduran Mənsur sevinc və kədər qarışıq hisslərin məngənəsində idi. Bir-birinin ardınca işğaldakı torpaqlarımızı aldıqca, başda dayısı oğlu Fərmin Əliyev olmaqla, ən yaxın dostlarını itirirdi. Hər şəhid xəbərini alan Mənsurun qəlbində düşmənə qəzəb hissi birə-on qat artırdı. Ürəyində tez-tez: "Baba, sənin paraşütlərini indi mənim pilotsuzlarım əvəz edir", – deyirdi. Pilotsuz uçuş aparatları artıq el arasında ad almışdı: Düşmənə qan udduran Harop".

Yaxın döyüş yoldaşlarının ölümündən təsirlənən Mənsur göz yaşlarını qəlbinə axıdaraq: "Vətən sağ olsun!" – deyirdi. Noyabrın 10-da Vətən müharibəsi, düşmənin biabırçı məğlubiyyəti təslim aktını imzalaması ilə bitdi. Faşistlər kimi. Ən yaxın ürək dostlarını itirən Mənsur bir şeylə təsəlli tapdı: Qarabağ işğaldan azad olundu, 30 illik torpaq həsrətinə son qoyuldu.

Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamı ilə müharibə iştirakçıları, qazilər, şəhidlər qəhrəmanlıqlarının qiymətini aldılar.

Pilotsuz uçuş aparatları mütəxəssisi kimi, fəal işinə və müharibənin gedişinə müsbət təsir göstərən zabit kimi Mənsur Tağızadə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuş, "Qarabağ veteranı" adına layiq görülmüşdür.

Mənsur Tağızadənin gələcəkdə nəvə-nəticələrinə bu sözləri deyəcəyinə şübhəmiz yoxdur: "Mənim balalarım, dünyada Vətəndən, doğma yurddan, isti ocaqdan əziz, müqəddəs heç nə yoxdur. Əzab və lənət vətənsizlərin taleyidir. Torpaq üstünə şəhid qanı tökülərsə, Vətən sayılır. Sizin babanız, elə mənim də babam bu torpaq, bu yurd, bu ocaq uğrunda mubarizəyə atılmış və üzüağ, alnıaçıq qalib kimi ad qazanmışdır. Ancaq mən istəmirəm ki, siz bir daha müharibə görəsiniz. İnanıram ki, siz gələcək nəsillərə Vətənimizin çiçəklənməsindən, inkişafından, dünya xalqları arasında tanınmasından və şanlı qədim tarixindən danışacaqsınız".

Elə biz də inanırıq!

**Məlahət TAĞIYEVA**
***Babək rayon Şıxmahmud kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi***




# Əziz Şuşa, biz qayıtmışıq!

*Həmin gün – 1992-ci ilin 8 may günü qara hərflərlə yazılmışdı tariximizə. Alınmaz qala Şuşamız satılmışdı, xainlərin əli ilə pay verilmişdi düşmənə. Həmin Şuşa ki tarixboyu düşmən üçün alınmaz olmuşdu . O Şuşa ki Məhəmməd şah Qacarın qoşunlarına təslim olmamışdı. O Şuşa ki orada Pənahəli xanın, Vaqifin, Xan qızı Natəvanın izləri vardı.*

Həmin Şuşa ki xarı bülbülü, Çətir şəlaləsi, Topxana meşəsi, Cıdır düzü ilə heyran qoyurdu hər kəsi. Şuşalı qadınların: – Ətəyimizə daş doldurub düşmənin başına töksək, o, Şuşaya yaxın gələ bilməz, – dediyi Şuşa sapı özümüzdən olan baltaların xəyanəti ucbatından peşkəş verildi erməniyə. Satıldı Xocalı, Kəlbəcər kimi. İllərlə – nə az, nə çox – bir igidin ömrü qədər gözü yollarda qaldı gözəl Şuşamızın. O öz yaxınlarının səsini, isti nəfəsini axtarırdı, donurdu yad baxışlardan, sinəsi yanırdı, tüstüsü göylərə sovrulurdu dağıdılanda tarixi abidələri, nəfəsi kəsilirdi sinəsinə düşmən əsgəri ayaq basanda, gözləri dolurdu bağrında erməni bayrağı dalğalandıqca, bulaqları quruyurdu torpağında yallı gedən düşmən əsgərini görəndə. Şuşasız keçdi 28 ilimiz... Öz doğma yurdunu görmədən neçə nisgilli insan köçdü, Şuşasız şuşalılar gəldi dünyaya həmin illərdə... Şuşasız 28 il... Bu xalq nələr yaşadı, nələrə dözdü, amma əyilmədi, ümidini itirmədi...

Həmin illərdə yenicə qazanmışdıq müstəqilliyimizi, hakimiyyət isə öz mənafeyini güdürdü, xalqı düşünən dahi oğlunu isə Bakıya yaxın qoymurdular. Ta o vaxta kimi ki, düşmən hücumu ilə bərabər, qardaş qırğını ilə də üzləşdilər. İllər bir-birini əvəz edir, amma biz heç ümidimizi itirmirdik. Bilirdik, əmin idik ki, bizim olan yenə özümüzə qayıdacaq. İnanırdıq, dahi rəhbərin davamçısı bizə böyük qələbəni yaşadacaq. Bu xalq əmin idi, çünki görmüşdü, şahid olmuşdu ulu öndərin xalq sevgisinə Onun bu milləti ən çətin vəziyyətdən qurtarmasına.

Və həmin tarix gəldi, Tanrı haqqımızı haqq elan etdi... 27 sentyabr səhəri Günəş də fərqli doğuldu, Qarabağın səmasında, hamımızın uzun illərdir, arzuladığı həmin səhər. O səhər ki, əvvəllər də açılmışdı. Ancaq məhz həmin səhər bu millət tarixin yenilməz səhifəsini yazmağa başladı. Azərbaycan əsgəri bağrımızdakı yaranı öz canı ilə sağaltdı. Hissə-hissə, ovuc-ovuc qayıtdı yurdumuz. Vətən müharibəsinin ilk günlərindən gözü yolda, qulağı səsdə idi. Düşməndən azad edilən hər qarış üçün sevinirdik və həsrətlə Şuşamızı gözləyirdik. Ali Baş Komandanın ***"Şuşa, sən azadsan"*** deməyini. Bu şəhərdə dünyaya gəlməyən, o şəhəri görməyən hər bir azərbaycanlı Şuşanın azadlığını həsrətlə gözləyirdi. Və həmin gün gəldi... Vətən müharibəsinin 42-ci günü igid Azərbaycan əsgəri bizə ən gözəl günü yaşatdı. Şad xəbəri Ali Baş Komandan öncə ulu öndərə Onun məzarı başında verdi: ***"Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, ulu öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"*** Vaxtilə ermənilərin "Dağlarda toy" əməliyyatı ilə işğal etdikləri elə həmin Şuşa dağlarında igid oğullarımız onlara tarixboyu unuda bilməyəcəkləri toyu tutdular.

Şuşanın azadlıq günündən daha gözəl gün ola bilməzdi bu xalq üçün. Çünki həmin gün Şuşanın köksünə illərdir, sancılan, onun nəfəsini kəsən o yad cismi – erməni bayrağını qoparıb ayaqlar altına atdı igid oğullarımız. Əlində üçrəngli, ay-ulduzlu bayraq, dilində ulu öndərimizin ***"Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur"*** kəlamı ilə Azərbaycan əsgəri Cıdır düzündə yallı getdi. Və bir daha sübut etdi ki, bütün dünya birləşsə belə, bu xalqın ürəyindən Vətən sevgisini silə bilməz. Bu xalq onun olanı – əziz Şuşasını, xarı bülbülünü heç kimə güzəştə getmədi.

Ötən ilin bu günü Şuşa həsrəti ilə yanırdı qəlbimiz, bu il isə qəlbimiz sevincdən qanad açır, gözlərimiz gülür Şuşa deyəndə . Çünki yurdumuz azaddır. Hər bir azərbaycanlının sevimli şəhəri Şuşa öz igid oğullarının canı, qanı bahasına azad edildi. Doğmalarının əlləri ilə yenidən qurulur, dirçəldilir, əvvəlki gözəl günlərinə qovuşmağa, Müzəffər Ali Baş Komandanını yeni gözəlliyi ilə qarşılamağa hazırlaşır. Qarabağımızın almaz qaşı Şuşa Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Azərbaycanın Mədəniyyət Paytaxtı" elan edildi. Sərəncamda deyilir: *"Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə qərara alınıb ki, Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilsin".*

Belə bir sərəncamın imzalanması erməni xislətinə daha tutarlı bir cavab olmaqla yanaşı, bu şəhərin Azərbaycan və azərbaycanlılar üçün nə qədər əziz olduğunu bir daha sübut etdi.

*Bu gün torpağı da, daşı da, gül açıb Şuşanın, çünki bu bahar başqa bahardır. Çünki o bilir ki, bu yaz qoynunda açan xarı bülbülün ətrini Azərbaycan əsgəri alır. Çünki o bilir ki, bundan sonrakı gələn yazı da, yayı da, payızı da, neçə-neçə fəsilləri də Cıdır düzündə qarşılayıb İsa bulağından yola salacaq əzizləri ilə birlikdə. Bu il Cıdır düzündə 32 ildən sonra ilk dəfə "Xarı bülbül" festivalı keçiriləcək. Qarabağ şikəstəsinin səsi Şuşanın, Xankəndinin dağlarına yayılacaq.*

✍ **Ramiyyə ƏKBƏROVA**

*Əfsanəyə dönən ömürlər*

# Cənnətdə ilk doğum günün mübarək, şəhidim!



*Vətənpərvərlik ana laylalarımızla başlayır. Ana öz övladını böyütdükcə ona Vətən sevgisini elə aşılayır ki, bu sevgi onun qidasına çevrilərək qanına, canına hopur. Bu sevgini öz varlığında yaşadan qəhrəmanlarımızdan biri də Zülfü Rzayevdir.*

Zülfü Rzayev 1993-cü il may ayının 9-da Şahbuz rayonunun Külüs kəndində dünyaya göz açmışdı. 1999-cu ildə kənd tam orta məktəbinin 1-ci sinfinə daxil olan Zülfü orta təhsil illərində dəqiq fənlərdə uğurlar əldə etsə də, təhsilini hərbi liseydə davam etdirməyi qərara almışdı. Uşaq yaşlarından hərb sənətinə olan marağı Zülfünü 2007-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə gətirib çıxarır. Buradan məzun olduqdan sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbdə Kəşfiyyatçı ixtisasına yiyələnir. 2014-cü ildən 2015-ci ilin avqust ayına kimi leytenant rütbəsi ilə Bakıda Təlim-Tədris Mərkəzində həm təhsilini artırır, həm də təlimlərlə ixtisasına aid biliklərini möhkəmləndirir. Bundan sonra Füzuli rayonunda N hərbi hissədə öz ixtisası üzrə qulluq etməyə başlayır.

2 aprel 2016-cı ildə 4 günlük müharibə nəticəsində Lələtəpə düşmən işğalından azad edilir. Lələtəpəyə üçrəngli bayrağımızı sancan Vətən oğullarından biri də Zülfü olur. Həmin döyüşlərdən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə leytenant Zülfü Rzayev "İgidliyə görə" medalı ilə təltif edilir. Bu əməliyyatdan sonra Zülfü verdiyi müsahibələrin birində deyirdi: "Ermənilər bizim ön xətdə olan kəndləri tez-tez atəşə tuturdu. Atəşkəsi mütəmadi olaraq pozurdu. Növbəti hücum vaxtı yuxarı komandanlığın əmrinə əsasən onların qarşısı alındı. Şəxsi heyətimiz ön xətti yararaq düşmən mövqelərinə tərəf irəlilədi və ermənilərin canlı qüvvəsini, texnikasını məhv edərək hazırda bizim nəzarətimizdə olan Lələtəpə yüksəkliyində qərar tutdu. Həmin yüksəkliyə qalxmağımızla qürur duyurduq. Çünki illərboyu həsrətində olduğumuz torpaqlarda idik. Bu, böyük bir zəfər idi. Aprel döyüşləri bir daha sübut etdi ki, bizim ordumuz nəyə qadirdir".

2018-ci ildə "Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyi" medalı ilə təltif edilən Zülfünün 2020-ci ilin avqust ayında sərhəd bölgəsində 5 illik xidmət müddəti başa çatsa da, Füzulidə qalıb, torpaqlarımız azad olunana qədər xidmət edəcəyini bildirir.

Ordumuzun nəyə qadir olduğunun növbəti sübutunu 27 sentyabrda başlanan İkinci Qarabağ müharibəsi göstərdi. Həmin gün başlayan Vətən müharibəsində Zülfü yuxarı komandanlığın "əsgər, zabit heyətini istiqamətləndirmək üçün arxada qal" əmrini eşidir, irəlidə döyüşmək istədiyini bildirir və səhər saatlarında başlayan müharibədə ilk 7 kəndin alınmasında öz qəhrəmanlığını göstərir, yaralansa belə, geri qayıtmır. Gedən döyüşlərdə qəhrəmancasına istirak edir, yazılan şanlı tarixə öz canı, qanıyla töhfə verib, şəhidlik zirvəsinə yüksəlir.

Ölümündən sonra Zülfü "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif olunub.

Cənnətdəki ilk doğum günün ərəfəsində səninlə görüşə gəlmişəm. Ad günün mübarək, şəhidim. Bilirəm ki, bu gün sənə ən böyük hədiyyə Qələbə xəbəridir. Cənnətdəki döyüş yoldaşlarınla zəfər sevincini yaşadığını da bilirəm. Sən və sənin kimi minlərlə qardaşımız murdar düşmənlərimizin ayaq izlərini müqəddəs torpaqlarımızdan silərək o torpaqlara səpilən toxum kimisiniz. Zaman keçdikcə cücərib artacaq, daim o torpaqlara və xalqımıza nəfəs verəcəksiniz.

✍ **Telli MƏMMƏDOVA**

# Gənc əsgərlər Vətənə sədaqət andı içiblər



Naxçıvan Əlahiddə Ümumqoşun Orduda keçirilən mərasimdə torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi yad edilib. Dövlət Himnimiz səsləndirildikdən sonra gənc əsgərlər təntənəli surətdə Vətənə sədaqət andı içərək ordu sıralarına tamhüquqlu həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi daxil olublar.

Polkovnik Mübariz Rzayev hərbi and içən əsgərləri təbrik edib, xidmətlərində uğurlar arzulayıb.

Gənc əsgərlər adından çıxış edən Xeybər Abbaszadə müzəffər Azərbaycan Ordusunda xidmət etməkdən qürur duyduğunu bildirib, ölkəmizin ərazi bütövlüyü uğrunda canını və qanını əsirgəməyən igid oğullarımız kimi Vətəni qoruyacaqlarına söz verib.

General-mayor Fazil Ağalarov Naxçıvan Qarnizonunun rəisi, general-polkovnik Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıraraq bildirib ki,Vətənə sədaqət andı içən gənc əsgərlər keçirilən məşğələlərdə nümunəvi iştirak edərək növbəti xidmət yerlərinə yenilməz döyüşçü kimi yollanacaqlar.

Qeyd edək ki, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında və Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında da gənc əsgərlər Vətənə sədaqət andı içiblər. Andiçmə mərasimləri şəxsi heyətin təntənəli keçidləri ilə başa çatıb.

**Kənan CƏLİLOV**

# Nicat Məmmədov vahid liderliyə yüksəldi



Naxçıvan Muxtar Respublikasında ilk dəfə təşkil olunan şahmat üzrə kişilər arasında keçirilən Azərbaycan çempionatında 5-ci turun oyunları keçirilib.

Ötən turu qələbə ilə başa vuran qrossmeyster Vüqar Əsədli (2572) eyni uğuru bu turda da təkrarlayıb. O, 5-ci turda beynəlxalq usta Kənan Qarayevdən (2331) üstün olub. Qrossmeyster Nicat Məmmədov (2609) çətin keçən görüşdə məğlubiyyətsiz irəliləyən qrossmeyster Misrətdin İsgəndərova (2535) ilk məğlubiyyətini yaşadıb. Naxçıvanlı qrossmeyster Urfan Sevdimalıyev (2369) isə beynəlxalq usta Aydın Süleymanlı (2520) qarşısında növbəti məğlubiyyətini alıb. Turnir cədvəlinin liderlərindən biri qrossmeyster Nicat Abasov (2665) qrossmeyster Fərid Abbasovla (2528) oyunda ağ-qara taxtanı "sülh"lə tərk etməyə razı olub. Tamaşaçılar beynəlxalq usta Abdulla Qədimbəyli (2470) ilə qrossmeyster Eltac Səfərlinin (2598) görüşündə də eyni nəticənin şahidi oldular. Beynəlxalq usta Məhəmməd Muradlı (2449) isə qrossmeyster Vasif Durarbəylinin (2606) müqavimətini qıra bilməyib. Görüş heç-heçə başa çatıb.

5 turdan sonra qrossmeyster Nicat Məmmədov 4 xalla turnir cədvəlinə başçılıq edir.

Qeyd edək ki, dairəvi sistem üzrə keçirilən çempionatda 12 zəka sahibi mübarizə aparır və çempionata mayın 18-də yekun vurulacaq.

Bu gün 6-cı turun görüşləri keçiriləcək. Bu turda azarkeşlər aşağıdakı görüşlərə şahidlik edəcəklər:

*Aydın Süleymanlı - Vasif Durarbəyli*
*Eltac Səfərli - Məhəmməd Muradlı*
*Nicat Məmmədov - Abdulla Qədimbəyli*
*Nicat Abasov - Misrətdin İsgəndərov*
*Vüqar Əsədli - Fərid Abbasov*
*Urfan Sevdimalıyev - Kənan Qarayev*

Görüşlər saat $14^{00}$-da başlayacaq.

✍ **Ceyhun MƏMMƏDOV**

# Muxtar respublika rəqs müsabiqəsi keçirilib



Naxçıvan Dövlət Uşaq Teatrında uşaq və gənclər arasında rəqs müsabiqəsi keçirilmişdir. Müsabiqədə Naxçıvan Musiqi Kollecində, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində təhsil alan tələbə və şagirdlər, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının Mahnı və Rəqs Ansamblının üzvləri, klub müəssisələrinin dərnək üzvləri iştirak etmişdir.

Müsabiqənin keçirilməsində məqsəd muxtar respublikada rəqs sənətinin inkişaf etdirilməsi, gənc istedadların aşkara çıxarılması, onların ifaçılıq səviyyəsinin yüksəldilməsi və dəstəklənməsidir.

Qeyd edək ki, müsabiqədə 2 yaş qrupu – solo, duet və kollektiv nominasiyaları üzrə 50-yə yaxın uşaq və gənc iştirak etmişdir. Münsiflər heyəti tərəfindən 10 ballıq sistem üzrə gizli səsvermə yolu ilə seçilmiş qaliblər yekun tədbirində mükafatlandırılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 9, ev 2 ünvanında yaşamış Əhmədova Yasəmən Musa qızının adına verilən 14409 inventar nömrəli texniki pasport və MH-0016816 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Səbuhi Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 391**